*Atmosfer havasını çirklənmədən qoruyaq*

# Tüstü insan orqanizminə ziyandır

Qəbələ rayonu artıq turizm diyarına çevrilmişdir. Rayonumuzda xeyli sayda otel, istirahət mərkəzi, pansionat fəaliyyət göstərir. Bu il rayonumuzun istirahət mərkəzlərinə 50 minə yaxın turist gəlmişdir. Qəbələnin füsunkar təbiəti, təmiz havası, gözəl meşələri tək yaz-yay aylarında deyil, ilin bütün fəsillərində rayonumuza gəlib-gedən qonaqların sayının artmasına səbəb olmuşdur.

Qəbələ rayonunda atmosfer havasını çirkləndirən sənaye və istehsalat müəssisəsi demək olar ki, yoxdur. Mövcud istehsal müəssisələrində olan tüstü borularında zərərli qazların və tozun təmizlənməsi üçün qurğular quraşdırılmışdır. Lakin payız fəslinin gəlməsi, ağaclardan xəzəllərin tökülməsi ilə əlaqədar Qəbələ şəhərində, havanın yağmursuz və günəşli günlərində, xüsusi ilə günortadan sonra və axşam tərəfi ətrafda tüstü dumanın yaranması halları müşahidə olunur. Buna əsas səbəb bəzi vətəndaşların ağac xəzəllərini və məişət tullantılarını öz həyətlərində və yaxud küçədə yığaraq yandırmasıdır.

Ərazinin havası tüstü və tozla çirkləndikdə həmin ərazidə günəş radiasiyasının intensivliyi zəifləyir, ultrabənövşəyi radiasiya kəskin surətdə azalır. Orqanizmin inkişafı üçün, xüsusilə uşaq yaşlarında bu şüaların böyük əhəmiyyəti vardır.

Xəzəl və məişət tullantılarının yanması nəticəsində tərkibində bir çox konsorogen maddələr və zərərli qazlar olan tüstü hava ilə birlikdə insan orqanizminə daxil olur. Vaxtaşırı olaraq bu cür hava ilə nəfəs aldıqda insanın həyat funksiyalarının gedişi pozulur, onda tənəffüs orqanlarının müxtəlif xəstəliklərinin, yaranmasına səbəb olur. Tüstü ilə çirklənmiş hava xüsusilə yaşlı insanlara və körpə uşaqlara daha çox mənfi təsir göstərir. Odur ki, yaşadığımız ərazidə atmosfer havasının tüstü ilə çirklənməsinin qarşısının alınması hamımızın borcudur.

"Atmosfer Havasının Mühafizəsi Haqqında" Azərbaycan Respublikasının Qanununun 16-cı maddəsində deyilir:

—Müəssisə və təşkilatların, yaşayış məntəqəsinin ərazisində atmosfer havasına zərərli təsir göstərən istehsalat və məişət tullantılarının saxlanılması, yandırılması və zərərsizləşdirilməsi qanunvericilikdə müəyyənləşdirilmiş qaydada həyata keçirilir;

—həmin tullantıların xüsusi qurğular olmadan yandırılmasına icazə verilmir;

—hər bir vətəndaş öz həyətində, yaşadığı küçədə məişət tullantılarının yandırılmasına yol verməməlidir.

Şəhər sakinləri tullantıların və ağac xəzəllərinin yığılaraq şəhərin zibilxana sahəsinə daşınmasını və yaxud həyətlərində müəyyən sahə vardırsa, xəzəllərin toplanaraq üstünün torpaqlanmasını (müəyyən vaxtdan sonra xəzəllərin çürüntüyə çevrilməsi üçün) təşkil etməlidirlər.

Şəhər İnzibati Ərazi Nümayəndəliyi və rayon gigiyena və epidemiologiya mərkəzi tərəfindən bu sahədə müəyyən işlər görülmüşdür. Belə ki, bu məsələ ilə əlaqədar vətəndaşlara bildirişlər paylanmış, onlarla söhbətlər aparılmışdır və bu iş davam etdirilir. Şəhər rəhbərliyi kommunal təsərrüfat şöbəsinə şəhər sakinlərinin həyətindən çıxan xəzəl və digər məişət tullantılarının daşınmasında onlara kömək edilməsi haqqında göstəriş vermişdir.

Vətəndaşlardan bir daha xahiş olunur: yaşadıqları ərazidə ağac xəzəllərini, məişət tullantılarını yandıraraq atmosfer havasının çirkləndirilməsinə yol verməsinlər. Çünki təmiz və saf hava bizim sağlamlığımızın qorunması üçün mühüm amildir.

**Qəbələ Şəhər İnzibati Ərazi Nümayəndəliyi.**

# Vergi ödəyicilərinin nəzərinə!

Bildiririk ki, vergi orqanı ilə vergi ödəyiciləri arasında "Vergi partnyorluğu sazişi"nin bağlanması məqsədilə Vergi Məcəlləsinə müvafiq maddələr əlavə edilmiş, Nazirlər Kabinetinin 19.07.2013-cü il tarixli, 190 nömrəli Qərarı ilə "Vergi partnyorluğu Sazişinin forması" və "Vergi partnyorluğu Sazişinin bağlanması Qaydaları" təsdiq edilmişdir.

"Vergi partnyorluğu Sazişi" vergi orqanı ilə vergi ödəyicisi arasında etibarlılığa, şəffaflığa və qarşılıqlı anlaşmaya əsaslanmaqla, vergi risklərinin minimallaşdırılması məqsədi ilə könüllü şəkildə bağlanılan niyyət razılaşmasıdır.

Sazişin məqsədləri aşağıdakılardır:

sahibkarlığa lüzumsuz müdaxilələrin qarşısını almaqla, onun inkişafını stimullaşdırmaq;

əməkdaşlığa, qarşılıqlı etibarlılığa və şəffaf münasibətlərə əsaslanan birgə fəaliyyəti təmin etmək;

müasir idarəetmə alətləri tətbiq etməklə, biznes subyektlərini vergi orqanlarının fəaliyyətinə cəlb etmək;

vergilərin ödənilməsi ilə bağlı könüllü əməletmə səviyyəsinin artırılması istiqamətində partnyorluq etmək;

ədalətli, çevik, effektiv və səmərəli vergi nəzarəti yaratmaq;

vergi risklərini minimallaşdırmaq.

Sazişin bağlanılması zamanı ilkin olaraq vergi ili ərzində yaranmış vergi öhdəliklərini tam və vaxtında icra edən, alqı-satqı əməliyyatlarını nağdsız qaydada həyata keçirən vergi ödəyicilərinə üstünlük verilir.

Sazişin bağlanması üçün vergi ödəyicisi tərəfindən könüllülük prinsipi əsasənda Vergilər Nazirliyinin 02.07.2013-cü il tarixli əmri ilə təsdiq edilmiş "Vergi partnyorluğu sazişinin bağlanması üçün Ərizə" forması ilə vergi orqanına müraciət edilir, daxil olmuş müraciətə 15 gün müddətində baxılır və sazişin bağlanması barədə qərar qəbul edilərək vergi ödəyicisinə yazılı məlumat verilir.

Vergi ödəyicisinin dövlət büdcəsi qarşısında vergi öhdəlikləri olduqda, vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədilməsi (azaldılması) müəyyən edildikdə vergi orqanı tərəfindən Sazişin bağlanılmasından yazılı məlumat verməklə imtina edilir.

Saziş vergilərin düzgün və tam ödənilməsində dövlət vergi orqanlarının yükünün biznes cəmiyyəti ilə bölüşdürülməsinə və qarşılıqlı əməkdaşlıq və məsuliyyət platformasında münasibətlərin qurulmasına yönəlmişdir.

Sazişin qüvvədə olduğu dövr ərzində vergi orqanı tərəfindən vergi qanunvericiliyi və vergi inzibatçılığında aparılan dəyişikliklər barədə vergi ödəyicisi operativ qaydada məlumatlandıracaq, vergi öhdəliklərinin yerinə yetirilməsində ona lazımi metodiki köməklik göstərəcəkdir.

Sizi vergi partnyorluğu sazişi bağlamağa dəvət edirik.

Əlavə məlumat almaq üçün uçotda olduğunuz vergi orqanına və ya Vergilər Nazirliyinin 195 nömrəli Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.

**VERGİLƏR NAZİRLİYİ.**

*Futbol*

## «Qəbələ» xalını qaytardı

Topaz Premyer Liqasında XI turun oyunları keçirilmişdir. Birinci dövrədə Sumqayıtda eyni adlı komandaya məğlub olan "Qəbələ" öz meydançasında qazandığı 2:0 hesablı qələbə ilə rəqibdən xalını geri qaytardı. Turun digər oyunlarında "Rəvan"—"Bakı" oyunu heç-heçə nəticələndi—0:0. "Neftçi" də "Simurq"la oyunda xalları bölüşdürdü. AZALə "İnter"ə 0:2 hesabı ilə məğlub oldu. "Xəzər Lənkəran" isə öz meydançasında "Qarabağ"a 0:3 hesabı ilə uduzdu.

XI turdan sonra 24 xal toplayan "Qarabağ" yarış cədvəlinə liderlik edir. "Neftçi" ilə "Qəbələ" isə 22 xalla ikinci-üçüncü yerləri bölüşdürürlər.

**Miri RƏHİMOV.**

## Maraqlı məlumatlar

- İngilis şairi Con Milton "İtirilmiş cənnət" adlı abidəvi əsərini yazarkən tamam kor idi.
- Franklin D. Ruzvelt gəncliyində uşaq paralici olduğundan gəzə bilmirdi. O, bunu özünə əngəl bilməmiş və əzmi sayəsində dörd dəfə ABŞ Prezidenti seçilmişdir.
- Bethoven 9-cu simfoniyasını bəstələyərkən tamam kar idi.
- Motsart ən böyük operalarını bəstələyərkən borc və xəstəlik içində idi.
- Böyük alman dramaturqu Şiller ən böyük tragediyalarını dözülməz ağrılar içində yazmışdı.
- Napoleon Bonapart İtaliyanı 21 yaşında işğal etmişdi.
- Fateh Sultan Məhmət Bizans imperiyasının paytaxtı Konstantinapolu fəth edərkən 21 yaşında idi.
- Villiam Pitt 24 yaşında İngiltərənin baş naziri olmuşdur.
- Motsartın konsert verməyə başladığında 6 yaşı var idi.
- Corc Fridrix Haendal ilk operasını 14 yaşında yazmışdı.

**Rəciyyə ŞİRİNOVA.**

## ELAN

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 9 №-li qərarı ilə Mirzəbəyli kənd sakini Əzizova Saray Əziz qızının adına verilmiş JN 0059 (kod 406130018) **Torpağa mülkiyyət hüququna dair Dövlət aktı itdiyi üçün** etibarsız sayılır.

*Redaktor*
*O. Ə. Məmmədov.*

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Məsul növbətçi*
*M. Ə. Rəhimov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Oxucu məktubları geri qaytarılmır.